# OXUYUB-ANLAMA: MÜHÜM SUALLAR CAVABLARI İLƏ

«Həqiqi oxu idrak, öyrənmə vərdişi, biliklərin dərinliyi və oxucunun dünyügörüşü ilə bağlıdır. Bu, köhnə biliklərdən istifadə, yeni biliklərin mənimsənilməsi və heç vaxt rastlaşmadığınız şəxsin düşüncələri ilə əlaqənin qurulması deməkdir.»

S.Siserman və K.Xatçins

Anlama – mətni oxuyub, onun məğzini dərk etməkdir. O bir-biri ilə əlaqəli iki əsas bacarığa əsaslanır: sözlərin oxusu və onları anlamaq.

Oxu prosesinin əsasını anlayaraq oxuma təşkil edir. Tədris prosesi zamanı şagird oxuduğu məzmunu anladıqda onu daha yaxşı qavrayır, öyrənir, təhlil və tədbiq edə bilir. Bu yazıda müəllimlərin şagirdlərdə oxuyub-anlama bacarıqlarını necə inkişaf etdirməklə bağlı suallarına aşağıdakı qısa cavab nümunələri ilə aydınlıq gətirilir.

- **Sözləri düzgün oxumaq mətni anlamağa necə təsir edir?**

Oxu iki komponentin məhsuludur: sözləri dərk etmək və dili anlamaq.

Anlama bacarığı güclü olan adamlar çap sözlərini dəqiq, effektli və sürətli şifrələyə bilirlər.

Sözləri düzgün oxumaq və mənasını bilmək oxunu asanlaşdırır və anlamanın səviyyəsini artırır.

- **Düzgün anlama yolundakı maneələr nələrdir?**

Sözlərin asta və qeyri-dəqiq oxunması zəif anlamağa səbəb olur.

Dili yaxşı bilməmək də anlamanın əsas manelərindəndir.

- **Düzgün anlamağa təsir edən amillər hansılardır?**

- Söz (lüğət) ehtiyatı və baza bilikləri;
- İnteqrasiya və nəticəçıxarma bacarığı;
- Dilin strukturunu/əlaqələrini anlamaq;
- Mətnin strukturunu anlamaq və şərh etmək;
- Anlamanı nəzarətdə saxlamaq;

Oxucuya oxuduğunu anlamaqda kömək etmək üçün bunlardan hər biri digəri ilə birgə işləyir.

- **Lüğət bazasının artırılmasının anlamada nə kimi rolu var?**

Lüğət bazası ilə oxuduğunu anlamaq arasında əlaqə qarşılıqlıdır: onlar bir-birlərini dəstəkləyir.

- **Uşaqların mütaliəyə ayırdıqları vaxt onların anlama bacarıqlarına təsir edirmi?**

Genişmiqyaslı statistik təhlillər göstərmişdir ki, uşaqların boş vaxtlarında mütaliə ilə məşğul olmaları anlamanı (həmçinin savadlılığın digər vacib bacarıqlarını: sözləri dərk etmək, düzgün yazı, lüğət bazası və s.) dəstəkləyir.

- **Oxu savadı iki mühüm bacarıq deməkdir:**

Oxu strategiaysına aidiyyatı olan məlumatarın müəyyənləşdirilməsi, seçilməsi və istifadəsi;

Qavradığını nümayiş etdirmək üçün oxuduğuna münasibət bildirmək.

- **Oxuyub-anlama fəaliyyətləri:**

Bədii və qeyri-bədii mətnləri mühüm detalları ilə xatırlamaq və nəql etmək;

Mətndə informasiyaları qruplaşdırmaq, onları kateqoriya və ya başlıq altında təqdim etmək;

Mətni oxuyub mənimsəmək üçün mövcud biliklərinə və şəxsi təcrübəsinə əsaslanmaq;

Bədii və informativ mətnlərdə proqnozlaşdırma və ehtimallarını təkrar nəzərdən keçirmək və dəqiqləşdirmək;

- **Oxuyub-anlama səriştəsi üzrə ümumi təlim nəticələri**:

- Mətnin mövzu, problem və ideyasını müəyyənləşdirir.

- Eyni mövzulu mətnlərin əsas ideyasını və müvafiq məqamlarını anladığını nümayiş etdirir;

- Açıq verilməmiş fikirləri müəyyənləşdirir;

- Anlamanın davamlılığı üçün köməkçi ideya və informasiyaları müəyyənləşdirir;

- Oxuduqlarını öz sözləri ilə ifadə edir;

- Qrafik mətnlərin dil, struktur, məzmun və forma baxımından fərqli və oxşar xüsusiyyətlərini izah edir, onların məzmununu öz sözləri ilə ifadə edir.

- **Səmərəli oxu üçün tövsiyələr**

Effektiv oxu sürətli oxu deyildir. Əgər oxu sürəti şagird üçün norma olan sürətdən artırılarsa, anlama səviyyəsi aşağı düşəcəkdir.

Mətni təfərrüatlı oxumadan öncə sürətlə nəzərdən keçirmək tövsiyə olunur. Məzmunun əsas inkişaf xəttinin qavranılması təfərrüatların mənimsənilməsini asanlaşdırır.

Passiv oxudan çəkinməli!

Özünü yoxlamalı: Oxu prosesi zamanı müəyyən fasilələrlə mətndən uzaqlaşaraq oxunmuş materialın ən vacib məqamlarını xatırlamalı. Bu, mətndən yalnız daha çox məlumatı yadda saxlamağı təmin etmir, həmçinin dərindən anlamağa kömək edir.

Mətn üzərində düşünmək üsulları tapmalı: Bu, anlama bacarığını formalaşdırır. Düşünmək üçün qısa fasilələr vermək, sualları cavablandırmaq, mətni öz sözləri ilə danışmaq və başqaları ilə müzakirə etmək onu yaddaşda möhkəmləndirir və mənimsəməyə kömək edir.

Mətni şərh etməli: Bunu açar sözlər. suallar, nümunələr və şəxsi fikirlərini yazmaqla etmək olar.

**İstifadə olunmuş ədəbiyyat:**

Улаф Шеве, Барбара Окли. Супер мозг: лучшие стратегии обучения, Минск, «Попурри», 2021, 160 с.

**Könül Aydın Nəhmətova**
**Filologiya üzrə fəlsəfə doktoru**
**ARTİ, Əlavə təhsilin məzmunu şöbəsinin müdiri**